# Etimad göstərilibsə...



**Qabaqcıl şöbələrdən söhbət düşəndə bir qayda olaraq Ağdaşın adı birincilər sırasında çəkilir. Təbii ki, bu ilk növbədə rayon mədəniyyət və turizm şöbəsinin müdiri Tahir Əliyevin adı ilə bağlıdır.**

İndi bu sətirləri yazarkən bir neçə il bundan əvvəli xatırlayıram. O vaxt Tahir müəllim şöbə müdirliyindən daha yüksək bir vəzifəyə - Ağdaş Rayon İcra Hakimiyyəti başçısının birinci müavini vəzifəsinə təyinat almışdı. Belə bir seçim təbii ki, təsadüfən edilməmişdi. Bu zaman onun yüksək təşkilatçılıq bacarığı, rəhbərlik səriştəsi, intellektual səviyyəsi, yalnız bölgədə deyil, həm də respublikada böyük nüfuza malik olması və s. diqqətçəkən insani xüsusiyyətləri nəzərə alınmışdı...

Bəri başdan qeyd edim ki, Tahir Əliyev ümidləri yenə doğrultmuş və bu vəzifənin öhdəsindən də ləyaqətlə gəlmiş, qısa zaman kəsiyində bölgənin sosial-iqtisadi yüksəlişi istiqamətində mühüm addımlar atmışdı...

Amma zorla məhəbbət olmaz, deyiblər. Dildə-dodaqda dolaşan, eldə-obada danışılan və təqdir edilən nə qədər uğur qazansa da Tahir müəllmin ürəyi daim könül verdiyi sənətin, uzun illər birgə çalışdığı kollektivin yanında qalmışdı. Hara gedirdisə mədəniyyəti düşünür, hansı problemi çözürdüsə gözləri önünə mədəni-maarif müəssisələrini gətirirdi. Və...

Və günlərin birində rəhbərliyə qəti qərarını bildirmiş, öz əvvəlki vəzifəsinə - Ağdaş Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri vəzifəsinə qaytarılmasını xahiş etmişdi. Onun bu addımı nazirliyimizin ayrı-ayrı strukturları, idarə və şöbələri, o cümlədən bu sətirlərin müəllifi tərəfindən razılıq hissilə qarşılanmışdı. Niyə?!

Bu sualın cavabı çoxlarına aydın olsa da, onu bir-iki sözlə açıqlamaq qeyri-mümkündür. Odur ki, bir anlığa həmin günləri təkrar-təkrar xatırlamalı oluruq.

Tahir müəllimdən sonra Ağdaş Rayon Mədəniyyət və Turizm Şöbəsinə verilən tapşırıqlar, edilən müraciətlər bir qayda olaraq icrasız qalırdı. Elementar bir məsələnin həlli müşkülə çevrilirdi. Problemlərə çözüm tapılmırdı. Yeni rəhbərlik səriştəsizliyini ört-basdır eləmək üçün yersiz bəhanələr gətirirdi. Adi bir çətinliyin önündə aciz qalınırdı. Nəticədə, şikayət-şikayət üstündən gəlirdi. Ağdaşa pənah gətirənlər peşman qayıdırdılar. Rayonun mədəni-maarif işçiləri yaranmış vəziyyətdən çıxış yolu tapa bilmədiklərindən, həsrətlə ötən çağları xatırlayırdılar: "Ay Tahir müəllim, hardasan?!.."

Nəhayət, Tahir müəllim qayıtdı. Və çox keçmədi ki, fırtınalar qoynunda istiqamətini itirmiş gəmiyə bənzəyən şöbədə işlər qaydasına düşdü. "Kapitan" sükanın arxasına keçən kimi bütün problemlər arxada qaldı. Maraq doğuran odur ki, Tahir müəllim bu uğura heç bir kadr dəyişikliyi aparmadan nail oldu.

Bu haqda mən niyə geniş danışıram?! Çünki yerlərdəki bütün şöbə müdirlərimiz heç də Tahir müəllim kimi yüksək təşkilatçılıq bacarığına qabil







deyildir...

Amma fəaliyyətləri ilə məmnunluq duyduğumuz müdirlər də var ki, onlarsız çalışdıqları bölgələri təsəvvür etmək olmur. Soltan Həsənov (Bərdə), Namiq Qaffarov (Sumqayıt), Nazim Ağayev (Xaçmaz), Rza Quliyev (Ağcabədi), Mina Məlikova (Gəncə), Fazilə Məmmədova (Gədəbəy), Lətifə Mövsümova (Masallı), Vaqif Alıyev (Kürdəmir), Şahin Qasımov (Ağdam), İlham Manafov (Abşeron), Elman Məmmədov (Füzuli), Səfər Ramazanov (Zaqatala), Gülgün Kərimov (Ağstafa), Sənan Talıbov (Xızı) və başqaları məhz belələrindəndir.

Söhbətimizə qayıdaraq bildirim ki, 2008-2009-cu illərdə Ağdaş Rayon Mədəniyyət və Turizm Şöbəsinin fəaliyyətində diqqətçəkən məqamlar yetərincə olmuşdur. Mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Rayon mədəniyyət evində, Ləki qəsəbə uşaq musiqi məktəbində, tarix-diyarşünaslıq muzeyində əsaslı, MKS-də, Heydər Əliyev muzeyində, mədəniyyət və turizm şöbəsinin inzibati binasında, Aşağı Ləki, Pirəzə, Şəmsamad kənd mədəniyyət evlərində, Qarağan-Şıxlar, Aşağı Zeynəddin kənd klublarında cari təmir işləri aparılmışdır. Heydər Əliyev muzeyində yeni kondisioner quraşdırılmış, Ağdaş şəhər və Ləki qəsəbə uşaq musiqi məktəblərinə yeni musiqi alətləri alınmış, Qoşaqovaq, Kükəl kənd mədəniyyət evləri, Ərəbocaq, Pirəyir, Qaradeyin, Gürcüva kənd klub müəssisələri oturacaqlarla təmin edilmiş, mədəni-maarif ocaqları inventar və avadanlıqlarla təchiz olunmuşdur.

Rayon ərazisindəki bütün abidələrin xəritələri çəkilmiş, onların üzərinə qoruma lövhələri vurulmuşdur.

**Ağdaş**

Tarixi əlamətdar günlərin, bayramların, elm və mədəniyyət xadimlərinin yubileylərinin yüksək səviyyədə keçirilməsinə ciddi fikir verilmiş və bütün bunlar geniş ictimaiyyətin yaxından iştirakı ilə təmin edilmişdir.

Uzun bir siyahı alındığını nəzərə alaraq görülən bütün işləri sadalamağa lüzum görmürəm. Razılıq doğuran odur ki, bu tədbirlər rəngarəngliyi və dolğunluğu ilə seçilir. Hiss olunur ki, şöbə rəhbərliyi onları həyata keçirərkən bu vacib işə məsuliyyət və yaradıcılıqla yanaşmış, müəssisələrdə çalışan 500-dən artıq mədəniyyət işçisinin hamısının qüvvə və bacarığından maksimum yararlanmağa çalışmışdır. Şöbə, həmçinin respublika səviyyəli tədbir, sərgi, festival və müsabiqələrə də fəal qoşulmuş, fərqlənən mədəniyyət işçiləri diplom və pul mükafatına layiq görülmüşlər...

Rayonda olarkən aparılan quruculuq, təmir-bərpa işləri ilk andan diqqətimizi cəlb etdi. Ağdaş görkəmini xeyli dəyişmişdir. Bu sırada mədəni-maarif müəssisələrinin mədəniyyətimizin inkişafı və təbliği, kitabxanaların yeni ədəbiyyat, muzeylərin eksponat, musiqi məktəblərinin musiqi alətləri ilə təminatı sahəsində həyata keçirdiyi tədbirlər xüsusilə fərəh doğurur.

- Başqa cür ola da bilməz, - deyə rayon mədəniyyət və turizm şöbəsinini müdiri Tahir Əliyev bizimlə fikirlərini bölüşür. Əgər sənə etimad göstəriblərsə o inamı doğrultmağa özündə mənəvi güc tapmalısan, məsuliyyətini birə-beş artırmalısan. Bir də, axı bu bizim vəzifə borcumuz, vətəndaşlıq qayəmizdir...

**● Y.ARAPLI**

